

# Beynəlxalq Qadınlar Günü DÜNYADA





**Tarix boyu bütün gözəllik və qayğılarını zərif çiyinlərində daşıyan qadınlar üçün təqvimə xüsusi bayramın – 8 Mart Beynəlxalq Qadınlar Gününün daxil edilməsi onlara olan ehtiram və sevginin ifadəsidir. Qadınların cəmiyyətdə kişilərlə bərabər hüquqlar əldə etmək uğrunda mübarizəsinin nəticəsi kimi yaranmış həmin bayram bu gün dünyanın əksər ölkələrində böyük təmtəraqla və özünəməxsus şəkildə qeyd edilir. Bu bayram dünyanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanda rəsmi olaraq qeyd edilir. Təqvimin həmin səhifəsi qeyri-iş günü hesab olunur.**

Avropada isə bir qədər fərqlidir. Səkkiz mart Avropa ölkələrində iş günü olsa da, hər bir ölkənin özünəxas adət-ənənələri isə bu bayrama rəng qatır.

Fransada martın 7-si "Nənələr bayramı" xüsusi qeyd edilir. Bu gündə bəylər öz xanımlarını hədiyyələri ilə sevindirirlər.

Yunanıstandakı "Babos" adlı qadınlar bayramı da maraqlı ənənələrlə yadda qalır. Gün ərzində bütün külli-ixtiyar xanımlara verilir. Ənənəyə görə, həmin gün müvəqqəti səlahiyyətə sahib xanımlar öz sevgililərini və ya həyat yoldaşlarını su şırnağı ilə isladırlar.

İtaliyanın iri şəhərlərində həmkarlar ittifaqlarından olan qadınların yürüşünü müşahidə etmək olar. Bu ölkədə qadınlara Mimoza gülünün hədiyyə edilməsi daha geniş yayılıb. Xırda sarı çiçəkləri olan bu zərif gül xüsusi əhval-ruhiyyə bəxş edir. Maraqlıdır ki, İtaliyada həmin gün kafe və restoranlar daha çox xanımların ixtiyarında olur, kişi müştəriləri əksər hallarda qəbul etmirlər. Onlar həmin gün yeməkləri ya evə sifariş verməli, ya da özü yemək hazırlamalıdır.

Almaniyada 2019-cu ildən bəri Beynəlxalq Qadınlar Günü ancaq paytaxt Berlində qeyri-işi günü hesab olunur. Ölkənin digər federal qurumlarında isə 8 mart rəsmi bayram hesab edilmir.

İsveçdə Qadınlar Bayramı Günündə xanımların ən sevimli hədiyyəsi gül və yaylıq olur. Bu özəl gündə hədiyyələrdən əldə edilən gəlir isə ölkədəki çoxuşaqlı anaların hesabına köçürülür.

Kubada 8 mart xüsusilə geniş qeyd edilir. Həmin gün qadınların ölkə inqilabına töhfələri xatırlanır. Hərbi, elmi, yaradıcılıq sahələrində xüsusi xidməti olan qadınlar mükafatlandırılırlar. 8 Mart Vyetnam xalqının tarixində qadın əzmkarlığı və onların Vətənə sevgisinin rəmzi olaraq qeyd edilir. Bu bayramın 2 min ildən çox yaşı var. Belə ki, həmin gün Vyetnam xalqının çinli işğalçı qüvvələrə qarşı azadlıq mübarizəsi hərakatına rəhbərlik etmiş Çinq bacıları xatırlanır. Onlar düşmən mühasirəsinə düşsələr də, təslim olmamış, sonadək mübarizə aparmış, özlərini çaya atmışlar. Odur ki, hər il ölkədə qəhrəman bacılar ehtiramla anılır, müxtəlif tədbirlər təşkil edilir.

Çində 8 mart qadınlar üçün qeyri-iş günü sayılır. Kişilər isə həmin gün həmişə olduğu kimi işə gedirlər. Məhz bu bayram günündə bütün mətbəx işləri, ən əsası isə xörək hazırlamaq bəylərin öhdəsinə düşür.

Martın 8-də bir sıra ölkələrdə formaca başqa adla qeyd edilsə də, mahiyyətcə qadına diqqət ön planda olur. Bu bayram Özbəkistan və Tacikistanda "Analar günü" kimi qeyd edilir. Həmin gün analar təbrik edilir, bütün xanımlara ana kimi şərəfli və məsuliyyətli ada layiq olmaq, ailə səadəti, cəmiyyət üçün faydalı övlad tərbiyə etmək kimi xoş arzular dilənilir.

Dünyada müxtəlif şəkildə qeyd edilən Beynəlxalq Qadınlar Gününün isə amalı birdir: qadınların fəaliyyətinin daim diqqətdə olduğunu vurğulamaq, onların cəmiyyət üçün dəyərli olduğunu hiss etdirməkdir.

Arzu edirik ki, cəmiyyətə, ailəyə, dövlətə, bütövlükdə bəşəriyyətə öz pozitiv fikirləri, qayğısı və gələcəyə ümid dolu baxışları ilə seçilən qadınların çöhrələrində daim təbəssüm olsun. Qoy onlara olan etimaddan ruhlanan xanımlar yaşadıqları cəmiyyətin, bəşəriyyətin inkişafına öz töhfələrini verib, adlarını tarixə yazdırsınlar.

**Əfsanə BAYRAMQIZI,**
**"Xalq qəzeti"**

Xalq qəzeti 2020.- 11 mart.- S.10.